# Teatr sənətimizin Məcnunu

**Tamaşaçıların yaddaşında "Qatarda" televiziya tamaşasındakı Fatı, "Yarımştat" tamaşasındakı Murtuz və başqa maraqlı rollarla qalan Məcnun Hacıbəyov 1935-ci il oktyabrın 5-də Quba rayonunun İkinci Nügədi kəndində dünyaya gəlib. Ailədə doqquz uşaq olublar.**



Onun aktyorluq bacarığını hələ uşaq yaşlarından ətrafındakılar hiss etməyə başlayıblar. Ancaq o illərdə Məcnun Hacıbəyov üçün aktyor olmaq, səhnəyə çıxıb müxtəlif rollar oynamaq, tamaşaçıların alqışlarını qazanmaq az qala möcüzə, şirin olduğu qədər də uzaq xəyal idi.

Doğma kəndində orta məktəbi bitirən Məcnun Hacıbəyov tükənməz arzular, sonsuz ümidlərlə yola çıxıb, Sumqayıt şəhərindəki zavodların birində işə düzəlib. Uşaqlıqdan zəhmətə alışmışdı. Odur ki, işdə çətinliyi olmayıb. Şəhər həyatına da alışmağa başlayıb. Amma bir gün gördüyü afişa Məcnun Hacıbəyovu bambaşqa bir aləmə səsləyib...

O gün işdən çıxıb şəhəri gəzirdi. Küçədə asılmış afişaların arasında biri diqqətini cəlb etdi. Afişadan Quba Dövlət Teatrının aktyorlarının tamaşa göstərəcəklərini oxuyub. Qeyd olunmuş gün tamaşaya bilet alıb.

Tamaşaya baxa-baxa xəyala dalıb. Özünü səhnədəki aktyorların yerində görüb. Əmin olub ki, əgər səhnədə olsa, həmin aktyorlardan daha yaxşı oynayar. Bu hiss, düşüncə tamaşadan sonra da onu tərk etməyib. Məcnun Hacıbəyov qətiyyətlə arzularının ardınca getməyə qərar verib. Quba Dövlət Teatrına yollanıb. Teatrın direktoru ilə görüşüb. Ona əvvəlcə özü barədə məlumat verib. Deyib ki, onuncu sinfi bitirib, sonra texniki məktəbdə oxuyub, indi də zavodda işləyir. Amma arzusu aktyor olmaqdır. Direktor Məcnundan səsinin olub-olmadığını xəbər alıb və "Bayatı-Şiraz" oxumasını istəyib. Məcnun Hacıbəyov "Bayatı-Şiraz"ı ifa edib. Direktor onun səsini bəyənib və Quba Dövlət Teatrına aktyor kimi işə götürüb.

Aktyor kimi işə başlayan Məcnun Hacıbəyov günlər keçdikcə bu sənətə, səhnəyə daha da bağlanıb. Amma evlənmək ərəfəsində müvəqqəti də olsa, teatrdan ayırılmalı olub. Çünki çoxları kimi Məcnun Hacıbəyovun gələcək qayınatası da aktyora qız verməkistəməyib. Ancaq Məcnun sevdiyi qızla ailə qurandan sonra yenidən teatra qayıdıb, aktyorluq fəaliyyətini davam etdirib.

Milli Dram Teatrının rejissoru Tofiq Kazımovun gəlişi, Quba teatrında tamaşa hazırlaması gənc aktyor Məcnun Hacıbəyovun həyatının ən unudulmaz xatirələrinə çevrilib. O, görkəmli rejissorun məsləhəti ilə Bakıya gələrək sənədlərini Teatr İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) verib. 1961-ci ildə Teatr İnstitutunun Aktyorluq fakültəsinə daxil olan Məcnun Hacıbəyov Tofiq Kazımov, Adil İsgəndərov kimi böyük sənətkarlardan dərs alıb.

İnstitutda ilk dərs günü müəllimi Tofiq Kazımov üzünü auditoriyaya tutaraq deyib: "Uşaqlar, bu institut aktyor yetişdirmir. Bu institut aktyorluğa gedən cığırı açır. Aktyor səhnədə yetişir. Çalışın yaxşı akyor olun". Məcnun Hacıbəyov müəlliminin bu sözlərini heç zaman yaddan çıxarmır.

O, 1965-ci ildə ali təhsilini başa vurub. Bir çox gənc aktyorun arzusu olan Milli Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) işə götürülüb. Böyük həvəslə səhnəyə çıxan, ona həvalə edilən rolların öhdəsindən uğurla gələn aktyor teatrda maaş az olduğuna görə on altı il zavodda gecə növbəsində fəhlə işləyib. Və bu barədə heç kimə deməyib.

O, 1989-cu ildə "Əməkdar artist" fəxri adına layiq görülüb. Məcnun Hacıbəyov "Canavar balası", "Evlənmək istəyirəm", "Gənclik macərası", "Göz həkimi", "Gülüş sanatoriyası", "Kişilər", "Qatarda", "Qəzəlxan", "Yarımştat" kimi film və televiziya tamaşalarında yaddaqalan rollar yaradıb. Müxtəlif xarakterli rollar yaradan aktyor müsahibələrində yalnız "Solğun çiçəklər" tamaşasında Əbdül rolunu oynamadığı üçün heyfsləndiyini söyləyib.

Məcnun Hacıbəyovun hər kəsə bəlli olan, etiraf edilən aktyorluq bacarığına, istedadına, təəssüf ki, kinorejissorlar laqeyd yanaşıb, nədənsə onun peşəkarlığını görməyiblər. Ömrünün sonlarında sənətkar özü də bunu həm gileylə, həm də inciklikə dönə-dönə söyləyib.

Həyatının son illərini dünyaya göz açdığı, boya-başa çatdığı Quba rayonunun İkinci Nügədi kəndində keçirib.

Səksən altı yaşına çatan aktyorun səhhətində problem olmayıb. Məcnun Hacıbəyov 2021-ci il noyabrın 16-da koronavirus xəstəliyindən dünyasını dəyişib. Sənətkar Qubanın İkinci Nügədi kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 16 oktyabr (№ 222).- S.10.